# İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi

## 31 dekabr 2018-ci il tarixinə

## Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun Konsolidasiya Edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditorun Hesabatı

## Mündəricat

MÜSTƏQİL AUDİTORUN HESABATI

KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARI


Konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat ........ 1
Konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat ........ 2
Konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat ........ 3
Konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat ........ 4

Konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər

1 İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi və onun fəaliyyəti ........ 5
2 Qrupun əməliyyat mühiti ........ 6
3 Əsas uçot siyasəti ........ 7
4 Uçot siyasətinin tətbiqi zamanı əhəmiyyətli ehtimallar və mülahizələr ........ 15
5 Yeni və ya yenidən işlənmiş standartların və onlara dair şərhlərin tətbiqi ........ 15
6 Yeni uçot qaydaları ........ 16
7 Əlaqəli tərəflərlə əməliyyatlar və qalıqlar ........ 18
8 Əsas vəsaitlər ........ 20
9 Sair qeyri-maddi aktivlər ........ 22
10 Mal-material ehtiyatları ........ 22
11 Ticarət və digər debitor borclar ........ 23
12 Avans ödənişləri ........ 23
13 Pul vəsaitləri və onların ekvivalentləri ........ 24
14 Sair aktivlər ........ 24
15 Nizamnamə kapitalı ........ 25
16 Sair vergi öhdəlilkləri ........ 25
17 Ticarət və digər kreditor borclar ........ 25
18 Sair gəlirlər ........ 25
19 Gəlirlərin kateqoriyalar üzrə təhlili ........ 26
20 Xidmətlərin maya dəyəri ........ 27
21 Ümumi və inzibati xərclər ........ 27
22 Maliyyə gəlirləri ........ 28
23 Mənfəət vergisi ........ 28
24 Təəhhüdlər və şərti öhdəliklər ........ 28
25 Əsas törəmə müəssisələr ........ 29
26 Ümumi nəzarətdə olan müəssisələrin birləşməsi ........ 29
27 Maliyyə risklərinin idarə edilməsi ........ 29
28 Kapitalın idarə edilməsi ........ 31
29 Ədalətli dəyər haqqında açıqlamalar ........ 32
30 Maliyyə alətlərinin qiymətləndirmə kateqoriyaları üzrə təqdim edilməsi ........ 32
31 Hesabat tarixindən sonrakı hadisələr ........ 32

# *Müstəqil Auditorun Hesabatı*

"İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin Təsisçisinə:

## *Şərti rəy*

Bizim fikrimizcə, *"Şərti rəy üçün əsas"* bölməsində qeyd olunan məsələnin təsiri istisna olmaqla, hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxsin ("Agentlik") və onun törəmə müəssisələrinin (birlikdə "Qrup") 31 dekabr 2018-ci il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş maliyyə nəticələrini və konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir.

**Auditin predmeti**

Qrupun konsolidasiya edilmiş maliyyə hesabatları aşağıdakılardan ibarətdir:

- 31 dekabr 2018-ci il tarixinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş kapitalda dəyişikliklər haqqında hesabat;
- həmin tarixdə başa çatan il üzrə konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabat; və əsas uçot siyasəti və digər izahedici məlumatlar daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatları üzrə qeydlər.

## *Şərti rəy üçün əsas*

Biz 15 aprel 2019-cu il tarixində Qrupun auditorları təyin olunduğumuz üçün 31 dekabr 2017 və 31 dekabr 2018-ci il tarixlərinə mal-material qalıqlarının fiziki inventarizasiyasını müşahidə edə bilməmişik. Biz, həmçinin alternativ audit proseduralarından istifadə etməklə göstərilən tarixlərdə mal-material ehtiyatlarının qalığı barədə bizi qane edəcək informasiya əldə edə bilməmişik. Bundan əlavə biz, mühasibat sistemindəki məlumatları yoxlamaqla və ya alternativ prosedurlardan istifadə etməklə maya dəyərinin qiymətləndirilməsi və vahidin maya dəyərinin müəyyən edilməsi üsulunun uyğunluğu ilə bağlı bizi qane edəcək əminlik əldə edə bilmədik. Dövrün əvvəlinə və sonuna mal-material ehtiyatları, eləcə də xərc kimi tanınmış mal-material ehtiyatları maliyyə nəticələrinə və pul vəsaitlərinin hərəkətinə təsir göstərdiyi üçün əvvəlki dövrün müqayisəli məlumatları daxil olmaqla konsolidasiya edilmiş mənfəət və ya zərər və sair məcmu gəlir haqqında hesabatda göstərilən mənfəətə, eləcə də əvvəlki dövrün müqayisəli məlumatları daxil olmaqla konsolidasiya edilmiş pul vəsaitlərinin hərəkəti haqqında hesabatda qeyd olunan əməliyyat fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitlərinə hər hansı düzəlişin edilməsinə ehtiyacın olub-olmamasını müəyyənləşdirmək imkanımız olmamışdır. Bundan əlavə, 31 dekabr 2017 və 31 dekabr 2018-ci il tarixlərinə konsolidasiya edilmiş maliyyə vəziyyəti haqqında hesabatda göstərilən mal-material qalıqlarına hər hansı düzəlişin edilməsinə ehtiyacın olub-olmamasını müəyyənləşdirmək imkanımız olmamışdır.

Biz auditi Beynəlxalq Audit Standartlarına uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyət rəyimizin *"Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti"* bölməsində əks etdirilir.

Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları şərti rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Müstəqillik**

Biz Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının dərc etdiyi Peşəkar Mühasiblərin Etika Məcəlləsinə uyğun olaraq Qrupdan asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk. Biz Etika Məcəlləsinə uyğun olaraq, etika ilə bağlı digər öhdəliklərimizi yerinə yetirmişik.

## *Konsolidasiya edilmiş maliyyə hesabatlarına görə rəhbərliyin və korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərin məsuliyyəti*

Rəhbərlik konsolidasiya edilmiş maliyyə hesabatlarının MHBS-ə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, eləcə də fırıldaqçılıq və yaxud səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflər olmayan konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin zəruri hesab etdiyi daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Qrupu ləğv etmək və ya fəaliyyətini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fəaliyyətin fasiləsizliyinə dair məlumatların açıqlanmasına və fəaliyyətin fasiləsizliyi prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslər Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

## *Konsolidasiya edilmiş maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti*

Bizim məqsədimiz bütövlükdə konsolidasiya edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olub-olmadığına dair kifayət qədər əminlik əldə etmək və rəyimizin daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək səviyyəsidir, lakin Beynəlxalq Audit Standartlarına uyğun olaraq auditin aparılması zamanı mövcud olan bütün əhəmiyyətli təhriflərin həmişə aşkar olunacağına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu olaraq istifadəçilərin konsolidasiya edilmiş maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmək ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

Beynəlxalq Audit Standartlarına uyğun aparılan auditin bir hissəsi olaraq, biz audit zamanı peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Konsolidasiya edilmiş maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması riskini müəyyən edir və qiymətləndirir, həmin risklərə qarşı audit prosedurlarını hazırlayır və həyata keçirir və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən daha yüksəkdir, çünki fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, məlumatların bilərəkdən göstərilməməsi, yanlış təqdimat və ya daxili nəzarət sistemində sui-istifadə halları daxil ola bilər.
- Qrupun daxili nəzarət sisteminin effektivliyinə dair rəy bildirmək üçün deyil, şəraitə uyğun audit prosedurlarını işləyib hazırlamaq üçün daxili nəzarət sistemi üzrə məlumat əldə edirik.
- Rəhbərlik tərəfindən istifadə edilən uçot siyasətinin uyğunluğunu, habelə uçot təxminləri və müvafiq açıqlamaların münasibliyini qiymətləndiririk.
- Fəaliyyətin fasiləsizliyi prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutları əsasında Qrupun fasiləsiz fəaliyyət göstərmək imkanını ciddi şübhə altına qoya bilən hadisə və şəraitlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair qənaətə gəlirik. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldikdə, auditor rəyimizdə konsolidasiya edilmiş maliyyə hesabatlarındakı müvafiq məlumatların açıqlanmasına diqqət yetirməli və ya belə məlumatların açıqlanması yetərli olmadıqda, rəyimizdə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və şəraitlər Qrupun fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər.

- Məlumatların açıqlanması da daxil olmaqla, konsolidasiya edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında düzgün təqdim edilib-edilmədiyini qiymətləndiririk.
- Konsolidasiya edilmiş maliyyə hesabatlarına dair rəy bildirmək üçün Qrupa daxil olan müəssisələrin maliyyə məlumatları və ya fəaliyyəti ilə bağlı yetərli müvafiq audit sübutu əldə edirik. Biz qrup auditinin idarə edilməsi, nəzarəti və həyata keçirilməsi üçün məsuliyyət daşıyırıq. Biz auditor rəyimizə görə tam məsuliyyət daşıyırıq.

Biz korporativ idarəetmə üzrə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı, planlaşdırılan audit prosedurlarının həcmi və müddəti, habelə əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar barədə məlumat veririk.

PricewaterhouseCoopers Audit Azerbaijan LLC

23 oktyabr 2019-cu il

Bakı, Azərbaycan Respublikası

*PraysvoterhausKupers Audit Azərbaycan MMC*
*Landmark Ofis Plaza III, 12ci mərtəbə, 90A Nizami küçəsi*
*AZ1010, Bakı, Azərbaycan*
*T: +994 (12) 497 25 15, F:+994 (12) 497 74 11, www.pwc.com/az*

| *Azərbaycan manatı ilə* | Qeyd | 31 dekabr 2018 | 31 dekabr 2017 |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| **Uzunmüddətli aktivlər** | | | |
| Əsas vəsaitlər | 8 | 56,309,977 | 45,060,442 |
| Sair qeyri-maddi aktivlər | 9 | 5,432,407 | 3,237,726 |
| Uzunmüddətli avans ödənişləri | 12 | 762,520 | 3,191,071 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **62,504,904** | **51,489,239** |
| **Qısamüddətli aktivlər** | | | |
| Mal-material ehtiyatları | 10 | 1,826,923 | 1,789,236 |
| Ticarət və digər debitor borclar | 11 | 208,624 | 397 |
| Qısamüddətli avans ödənişləri | 12 | 7,209 | 198,627 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 13 | 7,974,381 | 7,494,084 |
| Sair qısamüddətli aktivlər | 14 | 1,087,892 | 89,493 |
| **Cəmi qısamüddətli aktivlər** | | **11,105,029** | **9,571,837** |
| **Cəmi aktivlər** | | **73,609,933** | **61,061,076** |
| **Kapital** | | | |
| Nizamnamə kapitalı | 15 | 4,000,000 | - |
| Bölüşdürülməmiş mənfəət | | (70,319,763) | (30,776,789) |
| Sair ehtiyatlar | | 136,855,989 | 90,290,655 |
| **Cəmi kapital** | | **70,536,226** | **59,513,866** |
| **Öhdəliklər** | | | |
| **Qısamüddətli öhdəliklər** | | | |
| Ticarət və digər kreditor borclar | 17 | 2,116,937 | 543,954 |
| Cari il üzrə mənfəət vergisi öhdəliyi | | 3,822 | - |
| Sair vergi öhdəliyi | 16 | 952,948 | 1,003,256 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **3,073,707** | **1,547,210** |
| **Cəmi öhdəliklər** | | **3,073,707** | **1,547,210** |
| **Cəmi öhdəliklər və kapital** | | **73,609,933** | **61,061,076** |

23 oktyabr 2019-cu il tarixində imzalanmış və dərc olunmaq üçün təsdiqlənmişdir.

Zaur Əliyev
İdarə Heyətinin sədri

Rasim Həsənov
Maliyyə Departamentinin rəhbəri

5-32-ci səhifələrdəki qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsidir.

| *Azərbaycan manatı ilə* | Qeyd | 2018 | 2017 |
|---|---|---|---|
| Gəlirlər | 19 | 1,543,106 | 1,076,015 |
| Xidmətlərin maya dəyəri | 20 | (30,340,448) | (26,273,659) |
| **Ümumi mənfəət** | | **(28,797,342)** | **(25,197,644)** |
| Sair gəlirlər | 18 | 534,718 | 2,352,802 |
| Ümumi və inzibati xərclər | 21 | (11,306,440) | (7,311,487) |
| **Əməliyyat mənfəəti** | | **(39,569,064)** | **(30,156,329)** |
| Maliyyə gəlirləri | 22 | 29,912 | - |
| **Mənfəət vergisindən əvvəlki zərər** | | **(39,539,152)** | **(30,156,329)** |
| Mənfəət vergisi xərci | 23 | (3,822) | - |
| **İl üzrə zərər** | | **(39,542,974)** | **(30,156,329)** |
| **İl üzrə cəmi məcmu zərər** | | **(39,542,974)** | **(30,156,329)** |

| *Azərbaycan manatı ilə* | Qeyd | Nizamnamə kapitalı | Sair ehtiyatlar | Yığılmış zərər | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2017-ci il tarixinə qalıq** | | **-** | **12,000,000** | **(620,460)** | **11,379,540** |
| İl üzrə zərər | | - | - | (30,156,329) | (30,156,329) |
| 2017-ci il üzrə cəmi məcmu zərər | | - | - | (30,156,329) | (30,156,329) |
| Dövlət tərəfindən pul ayırmaları | | - | 33,539,363 | - | 33,539,363 |
| Ümumi nəzarətdə olan xalis aktivlərin transferi | 26 | - | 44,751,292 | - | 44,751,292 |
| **1 yanvar 2018-ci il tarixinə qalıq** | | **-** | **90,290,655** | **(30,776,789)** | **59,513,866** |
| İl üzrə zərər | | - | - | (39,542,974) | (39,542,974) |
| 2018-ci il üzrə cəmi məcmu zərər | | - | - | (39,542,974) | (39,542,974) |
| Nizamnamə fondu | 15 | 4,000,000 | - | - | 4,000,000 |
| Dövlət tərəfindən pul ayırmaları | | - | 32,918,745 | - | 32,918,745 |
| Ümumi nəzarətdə olan xalis aktivlərin transferi | 26 | - | 13,646,589 | - | 13,646,589 |
| **31 dekabr 2018-ci il tarixinə qalıq** | | **4,000,000** | **136,855,989** | **(70,319,763)** | **70,536,226** |

| *Azərbaycan manatı ilə* | Qeyd | 2018 | 2017 |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Vergidən əvvəlki mənfəət/(zərər) | | (39,539,152) | (30,156,329) |
| Düzəlişlər: | | | |
| Əsas vəsaitlərin amortizasiyası və dəyərsizləşməsi | 8 | 6,278,180 | 6,208,970 |
| Qeyri-maddi aktivlərin amortizasiyası və dəyərsizləşməsi | 9 | 65,837 | 26,103 |
| Ticarət və digər debitor borcların dəyərsizləşməsi | 11 | 2,258 | 5,145 |
| Köhnəlmiş mal-material ehtiyatları üzrə ehtiyatda dəyişiklik | | 261,454 | 505,608 |
| Əsas vəsaitlərin silinməsi üzrə xalis zərər | | 667 | 69,605 |
| Əvəzsiz olaraq verilmiş əmlak üzrə sair gəlir | 18 | (527,455) | (2,352,802) |
| Maliyyə gəlirləri | 22 | (29,912) | - |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | **(33,488,123)** | **(25,693,700)** |
| Ticarət və digər debitor borclarda azalma/(artım) | | 3,951 | (4,850) |
| Avans ödənişlərində azalma/(artım) | | 191,418 | (112,859) |
| Mal-material ehtiyatlarında azalma/(artım) | | (20,860) | (703,877) |
| Sair qısamüddətli aktivlərdə azalma/(artım) | | (998,401) | (88,967) |
| Ticarət və digər kreditor borclarda artım/(azalma) | | 1,542,389 | 444,303 |
| Vergi öhdəliklərində artım/(azalma) | | (50,308) | 979,946 |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | **668,189** | **513,696** |
| Alınmış faiz gəlirləri | 22 | 29,912 | - |
| **Əməliyyat fəaliyyəti üzrə istifadə olunan xalis pul vəsaitləri** | | **(32,790,022)** | **(25,180,004)** |
| **İnvestisiya fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Əsas vəsaitlərin alınması | | (2,444,709) | (7,066,285) |
| Qeyri-maddi aktivlərin alınması | | (1,203,717) | (4,827,034) |
| **İnvestisiya fəaliyyəti üzrə istifadə edilən xalis pul vəsaitləri** | | **(3,648,426)** | **(11,893,319)** |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə pul vəsaitlərinin hərəkəti** | | | |
| Nizamnamə fonduna nağd pul ayırmaları | | 4,000,000 | - |
| Təsisçi tərəfindən digər nağd pul ayırmaları | | 32,918,745 | 33,539,363 |
| **Maliyyələşdirmə fəaliyyəti üzrə daxil olan xalis pul vəsaitləri** | | **36,918,745** | **33,539,363** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | 13 | **7,494,084** | **11,028,044** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 13 | **7,974,381** | **7,494,084** |

5-32-ci səhifələrdəki qeydlər hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarının tərkib hissəsidir.